**UOT 11**

# YANILMALARIN MƏNBƏYİ: BİOLOJİ, PSİXOLOJİ VƏ MƏNTİQİ REDUKSİONİZM KONTEKSTİNDƏ

**Şəms BÜNYATOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 11 noyabr 2023; çapa qəbul edilmişdir: 29 noyabr 2023; online-da çap edilmişdir: 25 dekabr 2023.

Received: 11th of November, 2023; accepted: 29th of November, 2023; published online: 25th of December, 2023.

**Açar sözlər:** *yanılma, həqiqət, bioloji, psixoloji, məntiqi, reduksionizm, koqnitivizm*

## Giriş

Yanılma insanlara xas olan bir haldır, lakin Karl Qustav Yunqun da vurğuladığı kimi vacibolan yanılmamaq deyil, xətaları təcrübə kimi dəyərləndirmək və həqiqəti tapmaqdır. "Necə ki, işıq qaranlıqdan doğar, həqiqət də eləcə yanılmalardan doğar. Buna görə də, heç zaman səhvlərimdən qorxmadığım kimi, onları etdiyimə görə də peşmanlıq duymadım" (3, s. 189-190).Beləliklə, daim inkişaf etməkdə olan bilik sistemində yalnızca həqiqətin rolunu qeyd edərək, yanılmaların yeri, mahiyyəti və əhəmiyyətinə nəzər salmadan, onu gözardı etsək, elmimühitin mənzərəsini natamam şəkildə təsvir etmiş olarıq. Yanılmalar bu sistemin ayrılmaz bir elementi və elmi biliyin dialektik inkişafının mühüm aspektidir, eyni zamanda bütövlükdə elmi idrakın, xüsusilə də həqiqətin mahiyyətini daha yaxşı qavramağa imkan verir. Ümumiyyətlə, fəlsəfi ədəbiyyatda yanılma anlayışına ikitərəfli münasibətin mövcudluğunu vurğulamaq zəruridir. Bir tərəfdən, onu həqiqətin tərkib hissəsi kimi istisna etməyən və hətta həqiqətin birnövü kimi nisbi həqiqəti obyektiv həqiqətlə yanılmanın cəmi kimi dəyərləndirən baxışdır. Digər tərəfdən isə bu tərifə əks mövqedə dayanan, bütün hallarda yanılma-həqiqət münasibətini "bal çəlləyini korlayan qətran" kimi simvolikləşdirən baxışdır (1, s. 454-455).

Xüsusilə, son onilliklərdə yanılmaların səbəbləri bir çox elm sahəsi üçün diqqət mərkəzində olan təhlil obyekti və mübahisə mövzusu olmuşdur. Məlumdur ki, idealist qnoseologiyanın ən xarakterik xüsusiyyəti idrak prosesi eləcə də, həqiqətin dərk edilməsi prosesinin ictimai-tarixi şərtlənməsinə məhəl qoymamaqdır. Burjua fəlsəfəsində dərketmə birbaşa olaraq fərdin xüsusiyyətləri ilə şərtlənən individual, subyektiv akt kimi təqdim olunur. Bu mənada, həqiqətlə yanaşı, idrak prosesinin digər üzü olan yanılmanın şərhində də fərdilik xüsusiyyəti qabardılır. Koqnitivizm tərəfdarlarına görə, yanılmaların əsas səbəbi idraki funksiyanın pozulmasından qaynaqlanır. Halbuki, "motivasiya" əsaslı nəzəriyyə tərəfdarları irrasional mülahizələrin səbəbini emotivist meyllərdə, yəni insanların emosiya və ya hissi motivlərində, ümumilikdə affektiv hallarında tapmağa çalışırlar (7, s. 108). Bu mənada, Kanadalı filosof Duqlas Uoltona görə, Sosial psixologiya nümayəndələri A.Levi və P.Tetlok isə problemə fərqli istiqamətdən yanaşaraq qeyd edirlər ki, "koqnitivizm-motivizm mübahisəsində tərəflərdən heç birinin qalib gəlmək ehtimalı yoxdur...daha yaxşı strategiya motivist və koqnitivist yanaşmaların hər birinin konseptual qeyri-müəyyənliklərini dəqiqləşdirmək və aydınlaşdırılmasına fokuslanmaqdır" (10, s. 83). Bu baxış bucağının məqsədi koqnitiv və motivasiya əsaslı yanılmalardan hansısa birinin digərindən üstünlüyünü vurğulamaq deyil. Əksinə hər birinin işləmə prinsiplərinə nəzər salaraq, rasional qərarvermə və mühakimə yürütmək prosesinə spesifik təsirlərini aşkarlamaq, eyni zamanda yanılmaların təbiətini analiz edərək inkluziv perspektiv formalaşdırmaqdır.

* *doktorant, Bakı Dövlət Universiteti*
*e-mail:* shams.bunyatova@gmail.com

Ümumilikdə götürsək, fəlsəfi ədəbiyyatda elmi idrak prosesində meydana gələn yanılmaları xarakterizə edərkən, adətən, üç növ reduksionizm ilə qarşılaşırıq: bioloji, psixoloji və formal-məntiqi (6, s. 51).

**Yanılma bioloji fakt kimi**

Yuxarıda qeyd olunan ilk yanaşma idrak prosesində meydana gələn yanılmaların mənbəyini insanın bioloji xarakteristikasında axtarır. Bu nöqteyi-nəzər ilk növbədə subyektiv idealizm çərçivəsində geniş yayılmış, hətta R.Avenarius həqiqət və yanılmanı bioloji hadisə kimi dəyərləndirmişdir. Onun başlatdığı bu yanlış düşüncə daha sonra insanın dünyanı dərk etmə üsullarını bütövlükdə canlılar aləmində baş verən bioloji reaksiyalarla müqayisə edən, hətta bərabərləşdirən Ernst Max tərəfindən davam etdirilmişdir. Həqiqət və yanılma arasındakı fərqi hər hansı bir reaksiyanın orqanizm üçün faydası və zərəri baxımından izah edən Max, hörümçək, kəpənək və qurbağaların da eynilə insanlar kimi yanıldığına inanırdı. Max qeyd edirdi ki, "bütün biliklər psixi təcrübənin nəticəsidir... Mühakimə müvafiq təcrübə ilə ziddiyyət təşkil etdiyi halda, onu yanlışlıq kimi dəyərləndirməliyik... Yanılma və bilik eyni psixi mənbədən qaynaqlanır" (4, s.121-123). 1920-ci illərdən etibarən kapitalist ölkələrdə idrak problemlərini, o cümlədən yanılmanı biheviorist mövqedən izah etmək üçün çoxsaylı cəhdlər edilmişdir. Amerikalı psixoloq E.Torndayk heyvanlar üzərində təcrübə aparararaq belə nəticəyə gəlir ki, onlar çətin vəziyyətlərdə sınaq və yanılma yolu ilə düzgün çıxış yolu tapırlar. Məhz bu mövqe yanılma problemini həll etmək üçün mexaniki surətdə bilik nəzəriyyəsinə tətbiq olundu. V.Pilsbarinin "Sınaq və yanılma – əqli əməliyyatların qanunları" məqaləsi buna tipik nümunədir. Beləliklə, bioloji yanaşmanın tərəfdarları yanılmanın mənbəyinin ali sinir fəaliyyətinin fiziologiyası və konkret neyrodinamik proseslər ilə əlaqəli olduğunu iddia etmişlər. Məsələn, yanılma probleminin naturalist aspektdən dəyərləndirilməsi istiqamətində A.Kiselinçev 50-ci illərdə yazırdı: "...yanılmanın mahiyyətini təşkil edən fizioloji proseslər və şərtlər haqqında tam və dəqiq təsəvvür əldə etmək üçün birinci və ikinci siqnal sistemlərinin dinamik qarşılıqlı əlaqəsi zamanı meydana çıxan pozuntuları təhlil etmək vacibdir. İdrakdakı səhvlərin və yanlış təsəvvürlərin əsasını məhz orada axtarmaq lazımdır" (6, s. 53). Təbii ki, gerçəkliyin dərk olunmasında subyektin bioloji yönünün, yəni beyinin düşüncə orqanı kimi mövqeyini, hiss orqanlarının və sinir sisteminin fəaliyyətini görmə-məzlikdən gəlmək və ya inkar etmək düzgün olmazdı. Bununla belə, həqiqət və yanılma anla- yışlarını sırf bioloji amillərlə izah etmək qəbul olunmazdır. Hiss orqanlarının təbii məh- dudiyyətlərinə əsaslanaraq atomların mövcud olmadığını hissi idrakla sübut etməyə çalışan Max və onun davamçıları aqnostik və idealist nəticələr çıxararaq yanılmışdılar. Bu mənada təbiət elmləri qnoseologiya problemlərini həll etmək, xüsusən də idrak prosesində olan yanılmaları yalnız bioloji faktorlarla izah etmək iddiasında olmamalıdır və ola da bilməz.

Müasir dövrdə insanın fəaliyyətinin bioloji və sosial tərəflərin qarşılıqlı əlaqəsinə dair kifayət qədər irimiqyaslı tədqiqatlar aparılmışdır. İnsan idraki qabiliyyətlərinin formalaşmasında bioloji, psixoloji və sosial aspektlərinin rolunu vurğulayan N.Dubininə görə, beyin "insanın yalnız psixi xüsusiyyətlərini formalaşdırmağa imkan verir. Beyin proseslərinin morfologiyası və dina- mikasının əsasları bioloji olaraq müəyyən edilir. Lakin insan təfəkkürünün məzmunu, beynin həc- mi və strukturu postnatal dövrdə inkişaf edir. Bu mənada insan psixikasının inkişafında sosial olanın üstünlüyü göz qabağındadır". E.V.İlyenkov haqlı olaraq vurğulayır ki, "İnsan ehtiyaclarının mənşəyini dezoksiribonuklein turşularında axtarmaq lazım deyil, genezisi etibarilə onlar tamamilə sosial mənşəlidirlər" (6, s. 54-55).

**Yanılma psixoloji proseslərin nəticəsi kimi**

Yuxarıda da qeyd olunduğu kimi, idrak prosesində qeydə alınan yanılmaların səbəbini psixoloji amillərlə açıqlamaq cəhdləri olmuşdur. Fransız filosofu V.Broşar hesab edir ki, bilikdə yanılmaların yaranmasına səbəb olan müəyyənedici psixi aktlar hər bir fərd üçün xarakterik olan istəklər, ehtiraslar, qorxulardır və buna görə də "yanılmalarımızın təqsirkarı biz özümüzük".

Elmi biliklərdə yanılmaların mənbəyi haqqında yanlış təsəvvürlər arasında psixoloji reduksionizm ən geniş yayılanıdır. Yanılmanın ictimai-tarixi mahiyyətini, onun konkret tarixi təcrübə və bilikdən asılılığını nəzərə almayan psixoloji reduksionizm istər-istəməz son nəticədə subyektivizmə gətirib çıxarır. Şübhəsiz ki, elmi biliklərdə yanılmanın tədqiqi zamanı subyektin fərdi psixoloji potensialına istinad etmək müəyyən mənada əhəmiyyət kəsb edir. Lakin bu problemə onun idrak fəaliyyətinin psixoloji və qnoseoloji aspektlərinin qarşılıqlı əlaqəsi, eyni zamanda ictimai-tarixi proseslərin təsiri çərçivəsində baxmaq zəruridir. Bu məqamda nəzərə almaq lazımdır ki, idrak subyekti tarix boyu cəmiyyətin yaratdığı idrak üsullarına yiyələnmiş fərddir. Bu mənada konkret şəxs və ya şəxslər yanılmaya düçar olurlar. Bununla belə, yanılma heç bir halda sırf bir fərdin individual psixi vəziyyətinin nəticəsi hesab oluna bilməz. Belə ki, subyekt tarixən formalaşmış idraki fəaliyyətin forma və metodlarından təcrid olunmuş vəziyyətdə deyildir. Əksinə, insanın yaradıcı fəaliyyəti ilk növbədə konkret tarixi xarakter daşıyan və buna görə də imkanları məhdud olan mövcud bilik sistemi ilə müəyyən edilir. Bu, təbii ki, tədqiqatçının şəxsi intellektual və psixi keyfiyyətlərinin idrak prosesinin gedişinə təsirini inkar etmək demək deyil. Çünki hər bir tədqiqatçının fərdi xüsusiyyətləri idrakda müəyyən izlər qoyur, bəzən idrak prosesini sürətləndirir, bəzən ləngidir, bəzən yeni həqiqətlər ortaya çıxarır, bəzən isə mövcud "yanılmalar qammasına" yenilərini əlavə edir. Bu isə özlüyündə ictimai-tarixi idrak prosesinin durmadan yüksələn xətt kimi deyil, əksinə, vaxtaşırı dalğalanmaların, eniş və yüksəlişlərin təzahür olunduğu bir proses kimi formalaşmasına səbəb olur. Belə ki, bəzi hallarda konkret tarixi imkanları on, yüz, hətta min illərlə qabaqlayan səmərəli fikirlər irəli sürülür. Qədim yunan mütəfəkkirlərinin maddənin atom quruluşu haqqında təxminləri buna misal ola bilər. Bəzən isə yanılmalara qapılaraq, mövcud həqiqi biliklər təkzib olunaraq geriləmələr ola bilər.

Elmi idrakda yanılmaları araşdırarkən istinad mənbəyi fərdin psixi xüsusiyyətləri olan yanlış təsəvvürləri istisna etmədən, qnoseoloji və nəzəri əsaslı yanılmalardan keyfiyyətcə fərqini anlamaq lazımdır. Elmdəki bu cür yanlış təsəvvürlər onun ictimai-tarixi fenomen kimi inkişafının çətinliklərindən, idrak prosesinin özünün ziddiyyətli xarakterindən, həqiqətin dərk edilməsi yollarının müxtəlifliyindən, həqiqətin meyarı, idrakın əsası kimi konkret tarixi təcrübənin məhdudiyyətlərindən və digər bu kimi faktorlardan irəli gəlir. Bu çətinliklər və ziddiyyətlər obyektiv xarakter daşıyır, idrak subyektinin şəxsi, fərdi xüsusiyyətlərindən və psixi vəziyyətindən asılı deyildir. Odur ki, bu ziddiyyətlər əsasında yaranan yanılmalar fərdin nəzarətindən kənardadır və fərd lazımi şərait formalaşana qədər onları aradan qaldıra bilməz. Psixoanalizin nəticələri yalnızca əvvəlcədən müəyyən olunmuş şəxs və ya qrupun konkret situasiyalarda yanılma səbəblərini araşdırmaqla məhdudlaşır. Lakin yanılma mənbələrinin psixoloji təhlili elmi idrak prosesində meydana gələn yanılmaların mahiyyəti barədə dolğun izahat verə bilməz. Məhz buna görə də, yanılmaların qnoseoloji təhlilini apararkən, psixoloji mənbələri abstraktlaşdırma metodundan istifadə edərək kənarlaşdırmaq zəruridir.

Elmi biliklərdə yanlış təsəvvürlərin müəyyən edilməsində psixoloji reduksionizm iki mühüm amili vurğulayır: Birincisi, təkcə fərdin və ya bir qrup insanın deyil, eyni zamanda tədqiqatçılar birliyinin də psixiki xüsusiyyətləri yanılmaların təzahürünün konkret əsası kimi çıxış edə bilər. İkincisi, yanılmanın psixoloji mənbələrinin mütləq subyektivist, yəni fərdin sosial mühitdən asılı olmayan sırf individual xarakterli izahı qəbul olunmazdır. Dərindən araşdırdıqda məlum olur ki, psixoloji mənbələr ilk baxışdan göründüyü kimi o qədər də "şəxsi" xarakterli deyil. Belə ki, müasir psixologiya sübut etmişdir ki, alimin, həmçinin ictimaiyyətin psixikası məhz sosial xarakter daşıyan insanın fəaliyyəti prosesində formalaşır. Bu mənada yanılmaların psixoloji əsaslarının öyrənilməsi zamanı alimin fəaliyyətinin spesifik ictimai şərtlərinə diqqət etmək vacibdir, əks halda, onları elmi tədqiqat nəticələri kimi dəyərləndirmək düzgün hesab olunmayacaqdır.

**Yanılma anlayışının formal-məntiqi reduksionizm perspektivindən təhlili**

Yanılma problemini yalnızca dilin semantik təhlili və ya biliyin formal-məntiqi analizi çərçivəsində həll etmək cəhdləri də əsassız görünür. Fəlsəfə tarixində yanılmanın mənbələrinin

dildən qaynaqlanması fikri T.Hobbs, K.A.Helvetsi kimi filosoflar tərəfindən dəstəklənmişdir. Məsələn, “Məntiqin əl kitabı” əsərinin müəllifi Ceyms Ueltona görə, “yanılma etibarlılıq görünüşü altında gizlənmiş, məntiq prinsipinin pozulmasıdır (12, s. 227). Xüsusilə, müasir neopozitivizmin nümayəndələri də bilikdəki yanılmaları linqvistik vasitələrə əsaslanaraq izah etməyə çalışırlar. Belə ki, neopozitivistlərə görə, yanılmalar dilin qrammatik normalarının pozulması, sözlərdən düzgün istifadə edilməməsi, habelə formal məntiq qaydalarının doğru şəkildə başa düşülməməsi və tətbiqi nəticəsində özünü göstərir. Belə ki, məntiqi pozitivist A.Ştern “Həqiqət – yeni yanaşma” məqaləsində yazırdı ki, “həqiqətin təzahür olunduğu insani fəaliyyət sahəsi dildir”; yanılmalara gəldikdə, onların da mənbəyi dildən qaynaqlanır, çünki “yanılmalar sözlərin mənasını təhrif edən uğursuz təriflərdir” (9, s. 100). L.Vitgenşteyn isə hesab edirdi ki, bir sözün iki fərqli məna daşıması və ya iki fərqli sözün eyni şeyi ifadə etməsi ən böyük yanılmaların əsasıdır. Vitgenşteyn məntiqi qrammatika və sintaksisə tabe olan simvolizmi yanılmaların qarşısını almaq üçün mübarizədə yeganə radikal vasitə hesab edirdi. İlk növbədə onu qeyd etmək vacibdir ki, psixoloji reduksionizmin tərəfdarları kimi bu yanaşmanın nümayəndələri də ictimai-tarixi şərtlənməni görməzdən gələrək yanılmışlar. Formal-məntiqi metodla verilmiş mühakimələrin həqiqiliyi deyil, sadəcə olaraq doğruluğunu, düzgünlüyünü və ya məntiqi uyğunluğunu müəyyən etmək mümkündür. Belə ki, müəyyən bir cümlələr sistemi formal- məntiqi baxımdan düzgün olsa da, onun ifadə etdiyi fikir yanlış ola bilər. Bu mənada həqiqət və yanılmaarasındakı fərqi müəyyənləşdirmək üçün mütləq surətdə təcrübəyə müraciət etmək vacibdir.

Formal-məntiqi analiz baxımından yanılmaların mənbələrinin axtarışı uğurla sonlana bilməz. Formallaşdırma idrak prosesində əldə olunmuş son nəticələr çərçivəsində fəaliyyət göstərməklə, biliyi onun əldə olunma üsullarından kənarlaşdıraraq təhlil edir. B.M.Kedrov yazır: “Formal məntiq həqiqəti hazır şəkildə verilmiş, sabit bilik hesab edir. O, əsas diqqətini biliyin strukturunun öyrənilməsinə, onun “anatomiyasına” yönəldir. Əksinə, dialektik məntiq həqiqəti proses kimi tarixən yaranan və inkişaf edən, öz inkişafında ardıcıl olaraq müəyyən mərhələlər keçən bilik kimi şərh edir”. Bu mənada, həqiqət və yanılmanın mənşəyi və genezisi ilə maraqlanmayan məntiqi analiz biliyin strukturunda artıq mövcud olan yanılmaları tədqiqatçı üçün aşkara çıxarır. Beləliklə, Evklidin paralel xətlər postulatının inkarı, onun məhdudluğunun sübutu, eləcə də digər həndəsi sistemlərin mövcudluğu haqqında biliklər formal-məntiqi vasitələrlə əldə olunsa da, son nəticədə Evklid həndəsəsinin faktiki natamamlığı fəza xassələrinin müxtəlifliyininçox ölçülülüyünün nəzərə almaması ilə izah olunur. Təsadüfi deyil ki, qeyri-Evklid həndəsəsininyaradıcısı N.İ.Lobaçevski ona diqqət çəkmişdir ki, həndəsi təsvirlərin faktiki məzmunu eksperimental mənşəyə əsaslanmalıdır.

Elmi idrakda yanılma anlayışı daha geniş problemin – idrakın sosial-tarixi şərtləndirilməsinin bir hissəsi olmasına baxmayaraq, bu mövqedən onun təhlilinə daha az diqqət yetirilir. Lakin onu da qeyd etməliyik ki, Marksizm-leninizm ideologiyasının klassikləri K.Marks və F.Engels “Müqəddəs ailə”, “Alman ideologiyası”, F.Engels “Anti-Dürinq”, V.İ.Lenin “Materializm və empirio-kritisizm”, “Fəlsəfi dəftərlər” və başqa əsərlərində yanılmaların ictimai-tarixi şərtlənməsini xüsusilə vurğulamışlar. Xüsusilə, F.Engelsin işləri səhvlərin və xətaların mənbəyinin qiymətləndirilməsi zamanı sosial-tarixi mühiti nəzərə almayan E.Dürinq və onun kimi bir çox filosofun mövqelərinin tam etibarsızlığını göstərdi.

Bilindiyi kimi Dürinq, keçmişdəki elm və fəlsəfənin bütün nəzəri konstruksiyalarını onların müəlliflərinin zehni məhdudiyyətlərinə əsaslandığı üçün yanılma hesab edirdi. Beləliklə, Dürinqə görə, Darvinin üzvi dünyanın təkamülü haqqında doktrinası ciddi elmi nəzəriyyə deyil. Fixte və Şellinq fəlsəfəsini “quru cəfəngiyat”, Hegelin fəlsəfəsini isə “qızdırmalı fantaziya” adlandıran Dürinq utopik sosialistlər – A.Sen-Simon, C.Furye və R.Ouenin sosial ideyalarını “sağlam düşüncə”nin əksinə olaraq mütləq sayıqlamalar kimi dəyərləndirmişdir. Dürinqə görə, onların hərbiri yanılmaların məngənəsində ilişib qalmış saxtakarlardır (6, s. 64).

Dürinqin “ən sadə elementlər” metoduna görə, təsvirlə obyekt arasında ən kiçik uyğunsuzluq onu mütləq mənada yanılma kimi təsnif etmək üçün kifayət qədər güclü səbəb hesab olunur. Beləliklə, həqiqət və yanılmanı absolyut əksliklər kimi qarşı-qarşıya qoyan Dürinqin elmə zidd

ideyalarını tənqid edən Engels, mütləq həqiqət və mütləq yanılma kateqoriyaları ilə idrakdafəaliyyət göstərməyin qeyri-mümkünlüyünə diqqət çəkmişdir. O, biliyin inkişafının konkret tarixi mərhələlərinin hər birində nisbilik məsələsinə diqqəti cəlb edir: "...hər hansı bir şəxsiyyətin mütləq həqiqətə nail olmaq iddiaları tamamilə əsassızdır, çünki həqiqətin mənimsənilməsi dialektik inkişaf edən ictimai-tarixi prosesdir.." və buna görə də "... İnsanın daxilən qeyri-məhdudidrak qabiliyyəti ilə onun faktiki mövcudluğu və tarixi imkanlar arasında ziddiyyətlər mövcuddur," F.Engels qeyd edir, "..bu ziddiyyətlər gələcək nəsillərin praktiki təcrübəsi vasitəsilə həll olunur". Beləliklə, F.Engels mövzu ilə bağlı iki mühüm məqamı vurğulayır. İlk növbədə, Engelsin nəzərincə, yanılma və həqiqət bir-birilə sıx bağlı olan dialektik ziddiyyətlərdir və müəyyən şərtlər daxilində bir-birinə çevrilə bilər. Digər məqam isə, həqiqət və yanılmaya mütləqliq xassəsi yükləyən metafizik şərhin tənqididir (5, s. 290). Bu mənada, Engels, sadaladığımız ideoloqların utopist olma səbəblərini ictimai-tarixi vəziyyəti nəzərə almaqla izah edirdi. Onun fikrincə, onlar öz dövrləri üçün utopist hesab olunurdular, çünki irəli sürdükləri ideal cəmiyyətin elementləri hələ real şəraitdə özünü göstərmədiyindən, sosium tərəfindən də qəbul oluna bilməzdi.

Yanılmanın ictimai-tarixi aspektini nəzərə almayan burjua fəlsəfəsi nümayəndələri problemin həllini yalnızca empirik istiqamətdə tapmağa cəhd edirlər. Bu düşüncənin tərəfdarlarından olan V.Bernardinoya görə, yanılmalar yalnızca təcrübə əsnasında meydana çıxa bilər. Belə ki, onun mövcudluğu empirik sahənin sərhədləri ilə məhdudlaşır.

Fransız pozitivisti Rene Münye "Həqiqət problemi" adlı əsərində yanılmaya müəyyən bir məsələ barəsində "ağlın doğru olduğuna əmin olaraq, yanlış mühakimə yürütməsi" kimi tərif verir. Eyni zamanda, Münye yanılmanın iki mühüm elementini vurğulayır. İlk növbədə, özü- özlüyündə yanlış olan mühakiməni, material (maddi) element və bu mühakimənin doğruluğuna inamı formal element kimi təsvir edir. Münyenin fikrincə, məhz formal element yanılmanın əsas məğzini təşkil edir və onun uzun müddət ərzində özünü qoruyub saxlamasına xidmət edən tərəf kimi çıxış edir.

**Nəticə**

Britaniya filosofu Horatsi Cozefə görə, "həqiqətin norması ola bilər, lakin yanlışlığın aberrasiyaları sonsuzdur və bu mənada onların heç bir şəkildə hansısa təsnifata sığışdırılması mümkün deyil. Beləliklə, eyni bir səhv, müxtəlif yanılmalar üçün istinad nöqtəsi ola bilər" (8, s. 529). Bənzər düşüncəni Mişel de Montenin qeydlərində də görə bilərik. "Əgər yalanın həqiqət kimi bir sifəti olsaydı, bizim vəziyyətimiz yetərincə asan olardı... Amma həqiqətin əksinə olanın min sifəti var və heç bir hədd tanımır" (2, s. 11). Həqiqətən də, yanılma anlayışını bir başlıq altında identifikasiya etmək nə dərəcədə çətin olsa da, bütün deyilənləri nəzərə alaraq, yanılmaya belə bir tərif verə bilərik, "yanılma konkret dövrdə ictimai-tarixi praktikanın və elmin məhdudiyyətləri, eyni zamanda obyektin müəyyən aspektlərinin mütləqləşdirilməsi ilə şərtlənən, subyektin məhdud bilik və təcrübəsindən qaynaqlanaraq, obyektin öz gerçəkliyinə adekvat olmayan təsviri, izahıdır". Beləliklə, Kanadalı filosof Duqlas Uoltonun qeyd etdiyi kimi, bəzən yanılmaların səbəbi arqumentlərə ekvivalent olan ideoloji əsaslara subyektin fanatikcəsinə bağlı olması olur. Bu hal da öz növbəsində, subyektin həqiqət kimi qəbul etdiyi fikirlərin zəif tərəflərini görüb, yanıldığını dərk edə bilməməsinə və neytral, tənqidi mövqedən baxa bilməməsinə gətirib çıxarır (11, s. 379).

Bu mənada onu qeyd etmək vacibdir ki, mənbəyi və səbəbi istər emosional-psixoloji, istərsədə, idraki-məntiqi olsun, yanılmaların qarşısını almaq məqsədilə hər bir subyekt bir növ C.S. Millin ritorik ifadəsilə desək, "şeytanın vəkili" olmalıdır (7, s. 124). Yəni həqiqət kimi qəbul etdiyimiz mühakimələri möhkəmləndirmək və daha düzgün perspektivdən yanaşmaq məqsədilə, onlara sanki, əks arqumentlər irəli sürən və təkzib etməyə çalışan tərəf kimi yanaşmalıyıq. Bu cür yanaşma tənqidi bacarıqları təkmilləşdirərək, arqumentlərin strukturundakı boşluqları dolduraraq, hər növ xəta və yanılmaların qarşısını almaq üçün effektiv vasitə kimi dəyərləndiriləbilər.

## ƏDƏBİYYAT


1. Məmmədov, Ə.B. Rasionallıq və qeyri-rasionallıq. Bakı: Elm, 2010, 879 s.
2. Monten M. Ləyaqətlə yaşamaq və ölmək sənəti. Bakı: Qanun, 2022, 144 s.
3. Jung C G. Analitik Psikoloji. İstanbul: Payel Yayınevi, 2006, 428 s.
4. Mach E. Bilgi ve Hata. İstanbul: Devlet Basımevi, 1935, 144 s.
5. Чудинов Э.М. Природа Научной Истины. Москва: Политиздат, 1977, 312 с.
6. Заботин П.С. Преодоление заблуждения в научном познании. Москва: Мысль,1979, 191 с.
7. Correia V, Biases and fallacies: The role of motivated irrationality in fallacious reasoning // Cogency, Volume 3, No 1, 2011, p. 107-126.
8. Joseph. H.W. An Introduction to Logic. UK: Paper Tiger, 2000, 624 p.
9. Stern A. Truth- a New Approach // Aristotelian Society, 1965, Volume 65, No 2, p. 99- 122.
10. Tetlock P. & Levi A. Attribution Bias: On the Inconclusiveness of the Cognition- Motivation Debate // Journal of Experimental Social Psychology, Volume 18, İssue 1, 1980, p. 68-88.
11. Walton D, Defeasible reasoning and informal fallacies // Synthese, Volume 179, No 3, 2011, p. 377-407.
12. Welton J. A Manual of Logic. London: Forgotten Books, 2018, 364 p.


***Резюме***

***Шамс Бунятова***

***Источник заблуждений: в контексте биологического, психологического и логическогоредукционизма***


В статье представлен сравнительный анализ подходов, объясняющих сущность и причины возникновения понятия заблуждения с различных точек зрения. В этом контексте в статье упоминаются работы таких авторов, как С.Заботин, А.Мамедов, М.Чудинов, Э.Мах, В.Коррейя и Д.Уолтон, посвященные изучению феномена заблуждения. Как наука об истине, по определению Аристотеля, главной задачей философии и философов всегда было достижение истины. Однако путь к этой цели не всегда был изолирован от ошибок и дезинформации. В этом смысле заблуждение, которое во многих случаях исследуется под сенью истины, на самом деле является особенно важным компонентом эпистемологической системы. В этом смысле можно сказать, что заблуждения являются одним из результатов поиска истины и представляют собой когнитивную категорию, имеющую не только теоретическое, но и практическое значение. Феномен ошибки, являющейся неизбежным элементом познавательного процесса, стал одной из актуальных проблем эпистемологии в результате иного подхода К. Поппера. В то же время следует отметить, что хотя заблуждение и относится к таким факторам, как ошибка и ложный взгляд, оно отличается от других своими уникальными характеристиками. В связи с этим игнорирование их взаимодействия создает основу для одностороннего и узкого анализа познавательного процесса в целом. В философской литературе проблема источника ошибки, которая рассматривается как препятствие на пути к истине, а также как движущая сила и пробудитель, была предметом исследования многих философских школ. В этой связи особое внимание привлекают различные редукционистские подходы, пытающиеся объяснить причину заблуждений. В связи с этим целью данной статьи стало объяснение позиции натуралистического, психологического и формально-логического редукционизма относительно природы заблуждения. В целом все три подхода ориентированы на поиск источника ошибок в сознании человека, игнорируя социально-исторический фактор. В данной статье особое место отводится анализу ограниченности этих подходов, а также объективных и субъективных источников ошибок.

Таким образом, биологические, психологические и логические редукционистские позиции, объясняющие природу заблуждений с одного аспекта, сыграли важную роль в формировании общей теоретической базы.


**Ключевые слова:** *ошибка, истина, биологическое, психологическое, логическое, редукционизм, когнитивизм*

**Summary**

***Shams Bunyatova***

***Source of error: in the context of biological, psychological and logical reductionism***


The article presents a comparative analysis of approaches that explain the essence and causes of the concept of error from different perspectives. In this context, the article refers to the works of such authors as S. Zabotin, A.

Mammadov, M. Chudinov, E. Mach, V. Correia and D. Walton devoted to the study of the phenomenon of error. The main task of philosophy, which is the science of truth as defined by Aristotle, and philosophers has always been to reach the truth. However, the path to this goal has not always been isolated from errors and misinformation. In this sense, error, which in many cases is investigated under the shadow of truth, is actually a particularly important component of the epistemological system. In this sense, we can say that errors are one of the results of the search for truth and are a cognitive category that has not only theoretical but also practical meaning. The phenomenon of error, which is an inevitable element of the cognitive process, has become one of the current problems of epistemology as a result of K. Popper's different approach. At the same time, it should be noted that although error is relatedto factors such as mistake and fallacy, it differs from the others with its unique characteristics. Inthis respect, neglecting the interaction between them forms the basis for a one-sided and narrow analysis of the cognitive process in general.

In the philosophical literature, the source of error, which is considered as an obstacle on theway to truth, as well as a driving force and stimulant, has been the subject of research by many philosophical schools. In this context, various reductionist approaches that try to explain the cause of error attract particular attention. In this context, the aim of this article is to explain the position of naturalistic, psychological and formal-logical reductionism regarding the nature of fallacy. In general, all three approaches focus on finding the source of errors in the human mind, thus ignoring the socio-historical factor. In the present article, a special place is given to analysing the limitations of these approaches as well as the objective and subjective sources of error. Thus, biological, psychological and logical reductionist positions, which explain the nature of error from a single aspect, have played an important role in the formation of the general theoretical basis, albeit narrowly defined.

**Key words:** *error, truth, biological, psychological, logical, reductionism, cognitivism*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.